Azərbaycan qədim xalqlar sırasında olduğundan onun ədəbiyyatı da qədimdir. Bu ədəbiyyat qədimliyi qədər həm də zəngindir, şərəflidir, bütün dünyaya örnəkdir. Şöhrəti xalqın mənəvi dünyagörüşü ilə yanaşı, bu mənəviyyatın qələm ifadəçiləri tərəfindən yaranmışdır. Süleyman Rüstəm məhz belə qələm sahiblərindən biri olaraq, yazılı ədəbiyyatın və xalqın mənəviyyatının əbədi yaddaşına yazılmışdır.

S. Rüstəm müasir Azərbaycan ədəbiyyatının yaradıcılarından biridir. Çağdaş ədəbiyyat tariximiz, xüsusilə onun poeziya bölməsindən söhbət gedirsə bu böyük şairdən danışmamaq olmaz.

Şairin 1926-cı ildə 20 yaşında ilk kitabı çapdan çıxmışdır. 1927-ci ildə "Ələmdən nəşəyə" adlı ikinci kitabı nəşr olunmuşdur.

*Yeni həyat başlayarkən üzümüzə gülməyə,*
*Keçdim artıq gülə-gülə mən ələmdən nəşəyə.*

Burada nəşə dedikdə şair sadəcə olaraq həyatın kefini, ləzzətini nəzərdə tutmurdu. Bu, bütövlükdə o dövrdə yaşanan romantik bədbinliyə yönəlmiş bir şair etirazı idi. S.Rüstəm bədbin hisslərdən uzaq, quruculuğa, yeniliyə can atan insani hissləri daha yüksək qiymətləndirirdi. Məhz bu cür yenilik və bu yenilik uğrunda aparılan mübarizə onun üçün bir həyat nəşəsi idi. Şair yeniliyi təkcə arzulamırdı, şerləri ilə bu istəyi reallaşdırmağı da bacarırdı. Keçən əsrin hələ 30-cu illərində yazırdı:

*Yeriyirəm keçilməmiş şer yollarında mən,*
*Hər aldığım yüksəkliyə bayrağımı sancıram.*
*Qorxutmayır bu yollarda məni yağı, yol kəsən,*
*Mən onları şerimin misrasilə sancıram.*

Müasir poeziyanı yaradanlardan olan şair həm də Cənub mövzulu poeziya istiqamətini ardıcıl irəli aparanlardan biri olmuşdur. Etiraf etməlyik ki, son 70-80 ilin poeziyasında onun qədər Cənub mövzusuna ardıcıl toxunan və təsirli əsərlər yazan şair olmamışdır. O, bu mövzuda poetik incilər yaratmışdır:

*Çoxdandır bir vüsalın sevdası var başımda,*
*Yaxşı bilir bu sirri dostum da, sirdaşım da,*
*Mən cavan görünərdim inanın bu yaşımda*
*Dərdli Arazla bağlı kədərim olmasaydı.*

Bunu qeyd etmək də lazımdır ki, kommunist dövrünü yaşayaraq, kommunizmi vəsf edən bir şair üçün Cənubi Azərbaycan mövzusu çox məsuliyyətli bir istiqamət idi. Bir xalqın təkcə torpağının, daşının, suyunun yox, həm də varlığının iki yerə bölünməsi və duyğularının şerlərlə ifadə olunması hər bir kəs üçün həyati bir risk idi. Çünki bu şerlərdə o tayda yaşayan eyni dili, eyni dini olan qardaş insanların nisgili, ağrısı, əzabı ifadə



# Dinlə, gör nə deyir ?!



***Gədəbəy Rayon Mədəniyyət və Turizm Şöbəsinin keçirdiyi rəngarəng ədəbi-mədəni tədbirlərdən biri də xalq şairi Süleyman Rüstəmin 100 illik yubileyi ilə bağlı oldu. Şöbənin müdiri Fazilə Məmmədovanın rəhbərliyi sayəsində ərsəyə gələn bu yubiley dolğunluğu ilə diqqət çəkdi. Ədəbiyyat bütün dünya xalqları üçün həyatın ədəbi axarı, obrazlarla ifadəsidir. Hər xalqın həyatı onun ədəbi aləmində özünəməxsus şəkildə işıqlandırılır, yazıçı və şairlərin əsərlərində ifadə olunur. Bu mənada, hər bir xalqın yazıçı və şairi onun mənəvi pasportudur, o xalqın mənəviyyat ifadəçisidir.***

olunurdu. Şerlərdə həm də sətiraltı ifadələrlə bu dəhşətli sərhəd bölgüsünü yaradanlara qarşı etiraz notları hiss edilirdi. Şairin "Bir sözlə, iki sahil" başlıqlı şerləri Azərbaycan adlı iki sahilə parçalanmış bir xalqın poetik üsyanı idi. Bu həm də onun simasında Azərbaycan ədəbiyyatının o tay-bu tay bölgüsünə olan ədəbi qiyməti, ədəbi mübarizəsi idi.

S.Rüstəmin Cənubi Azərbaycan mövzusunda yazdığı şerlər mütləq mənada cəsarət tələb edirdi. O illərdə ki, o cənub şerləri yazırdı, ordakı nisgilin, ordakı harayın, ordakı zülmün, əsarətin poetik şərhini verirdi və bütün bunlar həm də sətiraltı ifadələrlə Sovet hakimiyyətinə qarşı ünvanlanırdı, bütün bunlar həqiqətən həyati risk idi, hünər idi. Şairin mübarizliyi onun şerlərində o tay-bu tay ayrılığını vəsf edirdi. Tənqidi sərt, nisgili yanğılı yazan bir müqtədir sənətkar olaraq təkcə ədəbi aləm üçün yox, bütövlükdə xalq üçün bir nümunə ünvanı idi. Şair Təbrizdə yaşayan Məhəmmədəli Abbasiyə yazdığı şerdə arzusunu dilə gətirirdi:

*Dinlə gör nə deyir sənə bu ürək, -*
*Mən nə duz, nə çörək həsrətindəyəm.*
*Səsini eşitmək, üzünü görmək,*
*Səninlə görüşmək həsrətindəyəm.*

Bir ayrı şerində isə zülmə qarşı çıxırdı:

*Əmammələr altında ilanlar görürəm mən,*
*Böhtanlar görürəm mən, yalanlar görürəm mən,*
*Əvvəli qan, sonu qan planlar görürəm mən,*
*Deyirəm bu bəlalar uzaq olsun elimdən.*

Şair nədən yazsa da, ümidini itirmirdi:

*Ayrılığa Araz deyil səbəb, bilir elimiz*
*Dar gündə də öz kökündən ayrılmayıb dilimiz,*
*Gün gələcək bərk sıxacaq bir-birini əlimiz,*
*Sən də vüsal şərbətini içəcəksən, qardaşım.*

Ömrünün 65 ilini poeziyaya həsr etmiş şairin mövzu dairəsi çoxsahəli və zəngin olmuşdur. Həyatının sonlarında gördüyü Qarabağ dəhşətləri də onun yaradıcılığından yan keçməmişdir. Qarabağ S.Rüstəmin poetik təfəkküründə belə canlandırılmışdır:

*Yadigarsan babalardan bizə ey şanlı diyar,*
*Dostluğun - fəxr elə - bağlarında təməl daşları var.*
*Yaşa qəlbində məhəbbət, yaşa alnında vüqar,*
*Şuşası şerimizin çeşməsi dillər Qarabağ,*
*Yürüşündə hər ili əsrə bərabər Qarabağ.*

S.Rüstəmin qəzəlləri də diqqəti cəlb edir:

*Qış küsür - küssün, fəqət məndən baharım küsməsin,*
*Küsməsin şux dilbərim, nazəndə yarım küsməsin.*

Xalq şairinin şerləri şəhər 1 saylı orta məktəbin şagirdlərinin ifasında tamaşaçılara xüsusi zövq verdi. Cənubi Azərbaycan nisgili, vətənpərvərlik hissləri, lirik qəzəllər tədbirə gələnlərdə xoş ovqat yaratdı.

Rayon mədəniyyət evi "Səda" instrumental ansamblının səsləndirdiyi nəğmələr şairin həm də böyük lirika ustası olduğunu bir daha göstərdi. "Xalq aşığı" ansamblı da tədbiri şənləndirdi. Aşıqların ifasında şairin sözləri alqışlarla qarşılandı. Şairin şerlərinin az hallarda aşıq ifasında səsləndirilməsi və bu cür ilhamla oxunması rayon mədəniyyət və turizm şöbəsinin işgüzar tövsiyə və fəaliyyətinin nəticəsidir.

*Süleyman, yaz yarat, çünki özün bilirsən ki,*
*Bu dünyaya sənintək çox Süleymanlar gəlib getmiş.*

Bəli, bu dünyaya çox Süleymanlar gəlib getmişlər. Hər birinin də yaddaşlarda öz izləri qalıb. Bu iz elə möhtəşəmdir, elə pozulmazdır ki, zaman-zaman xatırlandıqca onun böyüklüyü görünəcək. O, təkcə ədəbi aləmdə deyil, xalqın yaddaşında belə, daim qalacaq, xoş duyğulu anlarla anılacaqdır.

**Etibar NADİROĞLU,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**